# HÜSEYNOV RÖVŞƏN ŞƏMİL OĞLU



Hüseynov Rövşən 22 fevral 1967-ci ildə Ağdam rayonunun Quzanlı kəndində doğulmuşdur. 1984-cü ildə burada orta məktəbi bitirdikdən sonra Ağdam rayon mədəniyyət evində çalışmışdır. 1985-ci ildə Bakı Dövlət Universtitetinin Fizika fakültəsinə daxil olmuş, 1985-87-ci illərdə ordu sıralarında xidmət etmişdir. 1992-ci ildə Rövşənin başçılığı ilə 20 tələbə Bakı Dövlət Universitetində təhsillərini yarımçıq qoyaraq iki ay hərbi hazırlıq keçirlər. Sonra onlar ən qaynar döyüş nöqtəsi olan Goranboya yola düşürlər. Rövşənin dəstəsini "N" saylı tabura təhkim etmişdilər. 1992-ci ilin 28 apreldə Düşmənin üç yüzdən artıq əsgər və zabiti bir neçə müasir hərbi texnikası ilə Holandağa hücuma başlamışdı. R.Hüseynovun komandirlik etdiyi dəstə düşməni pərən-pərən saldı. Tələbə vzvodunun bu hünərlərini görən düşmən daha böyük qüvvə toplayıb dörd gündən sonra bir də hücuma keçdi. Döyüş dörd gün davam etdi. Rövşənin dəstəsi düşmənin iki zirehli texnikasını, yetmişdən artıq canlı qüvvəsini məhv etdi. Bu savaşda Rövşən tək başına iyirmidən çox düşməni zərərsizləşdirmişdir. 11 may 1992-ci il tarixdə Marquşevan uğrunda gedən qanlı döyüşlərdə Mingəçevir alayının 27 əsgəri mühasirəyə düşür. Rövşənin taqımına onları xilas etmək tapşırığı verilir. Onlar mühasirəyə düşən döyüşçülari azad edirlər, lakin özləri mühasirəyə düşürlər. Rövşən atəşi öz üzərinə çəkərək tələbələrə təhlükəsiz yerə çəkilmək əmrini verir. Burada tələbələrdən ikisi həlak olur, qalanları isə mühasirədən çıxa bilirlər. Rövşən pulemyotu ilə ermənilərin xeyli canlı qüvvəsini məhv edir, özü isə qəhrəmancasına həlak olur. Ağdam rayonunun Quzanlı kəndində dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 202 saylı Fərmanı ilə Hüseynov Rövşən Şəmil oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Bakı Dövlət Universitetində büstü qoyulmuşdur.